BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Sosial-siyasi elmlər seriyası* *2008*

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN HÜQUQLARININ MƏHKƏMƏ MÜDAFİƏSİNİN NƏZƏRİ-HÜQUQİ ƏSASLARI

**F.A.MİRİYEVA**
*Bakı Dövlət Universiteti*

Müasir dövrdə Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin və hüquqi demokratik dövlətin təşəkkülü məntiqi olaraq güclü, müstəqil, habelə əhali üçün əlverişli olan insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi mexanizminin yaradılmasını və səmərəli fəaliyyətini tələb edir. Ölkə Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin hüquqi əsaslarının təsbit olunması, məhkəmə hakimiyyəti institutlarının islahatı Əsas Qanunda bəyan olunan dəyərlərin adekvat dərk olunmasına və onlara riayət edilməsinə tam təminat verir. Bütövlükdə Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının məhkəmə müdafiəsi mexanizminin kompleksli təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, müasir dövrdə bu problemin nəzəri işlərinin səviyyəsi vətəndaşların və Azərbaycan dövlətçiliyinin tələbatlarını tam təmin edir.

Buna baxmayaraq, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının dövlət müdafiə sisteminin daha da təkmilləşdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi institutunun məzmun və xüsusiyyətlərini müəyyən edən bir sıra nəzəri müddəaların aydınlaşdırılması bu problemin hərtərəfli tədqiqini zəruri edir. Fikrimizcə, bu məqsədlə aşağıdakı məsələlərin qarşıya qoyulması məqsədəuyğundur: insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi institutunun anlayışı və məzmunu; Azərbaycan dövlətçiliyinin müasir inkişaf mərhələsində insan hüquq və azadlıqlarının müdafiəsi üzrə məhkəmə fəaliyyətinin vəziyyəti; mühakimə icraatı mexanizmində vətəndaş hüquqlarının məhkəmə müdafiəsi təminatlarının gücləndirilməsi yolları; milli məhkəmə sisteminin müasirləşdirilməsinin əsas istiqamətləri; məhkəməyə şikayət vermə və məhkəmə nəzarətini genişləndirmə imkanları; insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi prosedurlarının diferensiasiyası; hüquq və azadlıqların məhkəmə müdafiəsində vətəndaşların fəal iştirakı üçün daha əlverişli şəraitin yaradılması.

Məlumdur ki, hüquq institutları öz-özünə işləmir, o cümlədən qanunlar avtomatik olaraq icra edilmir. Təsis olunan institutlar və qəbul edilən qanunlar insanların həyat fəaliyyətində onlara nə dərəcədə müraciət edilmələrindən asılı olaraq realizə olunur. İstər institutlara, istərsə də qanunlara olan ictimai tələbatın səviyyəsi isə sosial-psixoloji amillərlə, ilk növbədə, vətəndaşların hüquq mədəniyyəti ilə birbaşa əlaqəlidir.

Hüquq və azadlıqların məhkəmə müdafiəsi hüququ mürəkkəb, çoxfunksiyalı təzahür olduğundan, onunla bağlı ədəbiyyatda müxtəlif mövqe və görüşlər meydana çıxmışdır. Belə ki, hüquq elmində məhkəmə

müdafiəsi təkcə hüquq institutu kimi deyil, həmçinin şəxsiyyətin hüquq və azadlıqlarının dövlət müdafiəsinin forması, ictimai münasibət və dövlət funksiyası kimi araşdırılır (1, s. 225). Bəzi müəlliflər məhkəmə müdafiəsini ədalət mühakiməsi ilə eyniləşdirir və ya onu ədalət mühakiməsinin təminatı hesab edirlər (2, s. 8).

Cinayət-prosessual elmdə məhkəmə müdafiəsinə öz hüquq və qanuni mənafelərinin müdafiə edilməsi üçün şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxsə təqdim olunan təşkilati və prosessual qaydaların məcmuyu kimi yanaşılır (3, s. 46).

Eyni zamanda, dövlət və hüquq nəzəriyyəsində bəzi müəlliflər məhkəmə müdafiəsini dövlətin hüquqmühafizə fünksiyasının tərkib hissəsi kimi nəzərdən keçirirlər (4, s. 150). Bu cür yanaşmanın səbəbi aydındır, belə ki, hüquqi dövlətdə məhkəmə hakimiyyətinin rolunun güclənməsi, onun hüquqmühafizə orqanları sistemində əlahiddə yer alması, dövlət hakimiyyətinin müstəqil qoluna çevrilməsi labüd olaraq, insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin müstəqil dövlət funksiyasına çevrilməsini şərtləndirir.

Məhkəmə müdafiəsinin mahiyyəti ilə bağlı fikir müxtəlifliyi baxılan sosial və hüquq fenomenin mürəkkəb xarakterinə dəlalət edir, onu məhkəmə hakimiyyətinin mahiyyətini, məzmununu və realizə formalarını səciyyə edən konseptual nəzəri və siyasi-hüquqi institut kimi nəzərdən keçirməyə əsas verir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi, fikrimizcə, elə bir hüquqi mexanizmdir ki, onun köməyi ilə dövlət ilk növbədə ölkə Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməsini təmin etmək öhdəliyi daşıyır. Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 12) bu öhdəliyin müəyyən olunması Azərbaycan Respublikasının 1966-cı il tarixli Mülki və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakta qoşulması faktını əks etdirir. Bu fakt dövlətdən elə bir hüquqi mühit yaratmağı tələb edir ki, orada hüquqi yardım almaq hüququ səlahiyyətli məhkəmələr və digər hakimiyyət orqanları tərəfindən müəyyən olunsun və dövlət məhkəmə müdafiəsinin imkanlarını genişləndirmək öhdəliyi daşısın.

Hesab edirik ki, insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi institutunun nəzəri işlənməsi zamanı ona dair ümumi təsəvvürün və onun məzmununun əsas tərkib hissəsi vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsi konsepsiyası olmalıdır. Bu konsepsiya məhkəmə hakimiyyətinin inkişaf təmayüllərini, insan və vətəndaş hüquq və azadlıqlarına dair konstitusion müddəaların ədalət mühakiməsi tərəfindən təmin olunma səviyyəsini əks etdirməlidir.

Müasir dövrdə məhkəmələrin hüquq-müdafiə fəaliyyətinə, onun ədalət mühakiməsinin ümumi vəzifələr sistemindən ayrılmasına xüsusilə ciddi diqqət yetirmək tələb olunur. Bununla belə, insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin məhkəmə fəaliyyətinin ümumi sistemindən ayrılması şərti xarakter daşıyır, belə ki, məhkəmələrin fəaliyyəti bütövlükdə götürdükdə insan hüquq və azadlıqlarını müdafiəsi məqsədinə xidmət edir.

Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə müdafiəsinin mahiyyətini hüquqi dövlətin yuridik institutu kimi müəyyən edən, ədalət mühakiməsi orqanlarının fəaliyyətinin aparıcı istiqamətini əks etdirən hüquq normaları kompleksini nəzərdə tutur. Konstitusiya müdafiə edilməli olan əsas hüquq və azadlıqları, məhkəmə fəaliyyətinin növlərini, məhkəmə fəaliyyətinin lazımi formada təşkili şərtlərini,

məhkəmə müdafiəsinin realizə olunmasının hüquqi təminatlarını müəyyən edir. Fikrimizcə, vətəndaş hüquqlarının məhkəmə müdafiəsinin məzmununu, struktur və formalarını bilavasitə müəyyən edən konstitusion müddəalar arasında aşağıdakıları fərqləndirmək məqsədəuyğundur:

1. Konstitusiyaya əsasən, vətəndaşların hüquq və azadlıqları məhz ədalət mühakiməsi, daha doğrusu, Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələr tərəfindən həyata keçirilən məhkəmə fəaliyyətinin ali forması ilə təmin olunur. Milli məhkəmələrdə mühakimə icraatı Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir. Bu qaydalar mühakimə icraatı iştirakçılarına prosessual hüquq və təminatların ən geniş dəstini təqdim edir.

2. Konstitusiya hər kəsin məhkəməyə müraciət etmək hüququnu – insan və vətəndaşın ədalət mühakiməsinə olan hüququnu bəyan edir. Bu prinsip onu nəzərdə tutur ki, dövlət hakimiyyəti, yerli özünüidarə orqanları və onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində hüquqları pozulmuş hər bir şəxs müdafiə üçün məhkəməyə müraciət edə bilər. Başqa sözlə, ədalət mühakiməsinə olan hüquq təkcə cinayətdən zərər çəkmiş şəxslərə məxsus imtiyaz deyildir. Mülki və siyasi hüquqlar haqqında Beyənlxalq Paktın 14-cü maddəsinə uyğun olaraq, «hər kəs ona qarşı irəli sürülmüş hər hansı cinayət ittihamı üzrə işin qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq şəkildə araşdırılması hüququna malikdir». Qeyd olunan beynəlxalq Pakt məhkəmə müdafiəsi hüququnu şəxsin hüquq və vəzifələrinin müəyyən olunduğu hər hansı mülki prosesə də şamil edir.

3. İşin müvafiq məhkəmə və səlahiyyətli hakim tərəfindən baxılması hüququ məhkəmə müdafiəsinin həyata keçirilməsi zamanı ədalət mühakiməsinin qanunilik şərtlərindən biridir. Bu qaydaya riyaət olunması hər bir məhkəmə tərəfindən baxılmalı olan işlərin dürüst siyahısının müəyyən olunmasını, yuxarı məhkəmə tərəfindən özbaşına olaraq işlərin bir məhkəmənin icraatından götürülərək digər məhkəməyə verilməsinin yolverilməzliyini, məhkəmə aidiyyətini müəyyən edən prosessual normaların mətnindən qeyri-müəyyən müddəaların kənar edilməsini nəzərdə tutur. Bununla belə, məhkəmə təcrübəsində elə hallara rast gəlinir ki, konkret işin aidiyyətinin dəyişdirilməsi proses iştirakçılarının prosessual hüquqlarına riayət edilməsi və ədalət mühakiməsinin lazımi formada həyata keçirilməsi tələblərinə əməl etmək zərurətindən irəli gəlir. İşin aidiyyət əsasında müvafiq məhkəmə və ya hakim tərəfindən baxılmasının qeyri-mümkün olduğu hallar nümunə kimi göstərilə bilər.

4. İnsan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin həyata keçirilməsinin qanunilik və ədalətlilik şərti – işin tərəflərin hüquq bərabərliyinə, təqsirləndirilən şəxsin müdafiə, zərərçəkmiş şəxsin isə məhkəmədə təmsil olunmaq hüququna, çəkişmə və təqsirsizlik prezumpsiyası prinsiplərinə riayət edilməsi şərtilə açıq məhkəmə baxışıdır.

5. İnsan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin təminatı – Konstitusiya və qüvvədə olan qanunvericiliklə müəyyən olunan işə təkrar (üç instansiyalı) məhkəmə baxışı imkanının mövcudluğudur. Cinayət törətməyə görə məhkum olunmuş hər bir şəxs işin yuxarı məhkəmə tərəfindən təkrar baxılması hüququna malikdir.

Məhkəmə sistemi haqqında qanunvericilik hər bir vətəndaşa aşağı instansiya məhkəməsinin qərarlarına təkrar baxılması xahişi ilə məhkəmə sisteminin digər həlqəsinə aid olan yuxarı məhkəməyə müraciət etmək imkanı verir; prosessual qanunvericilik maraqlı tərəflərin belə araşdırmada iştirak qaydalarını müəyyən edir.

Onu da qeyd edək ki, müasir dövrdə vətəndaş hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi cəmiyyətin demokratikliyinin, məhkəmə sisteminin cəmiyyətdə tutduğu yerin əsas göstəricilərindən biridir. Nəzərə alınmalıdır ki, bir sıra hallarda məhkəmə müdafiəsi insanın hüquqi müdafiəsinin yeganə üsuludur (məsələn, qanunsuz məhkum edilmiş və ya cinayət məsuliyyətinə cəlb edilmiş şəxsin reabilitasiyası, atalığın müəyyən edilməsi, şəxsin xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilməsi). Məhkəmə müdafiəsinin xarakteri onu şəxsiyyətin pozulmuş hüquq və azadlıqlarının universal və buna görə də təsirli müdafiə üsulu hesab etməyə əsas verir. Çünki məhkəmə müdafiəsinin əsas xüsusiyyəti onun qeyri-məhdudluğu və ümumiliyidir.

Eyni zamanda, məhkəmə müdafiəsi qeyri-məhdud şəxslər dairəsinə şamil olunur, belə ki, o, təkcə ayrı-ayrı vətəndaşların deyil, həm də vətəndaş birliklərinin hüququdur. Azərbaycan Respublikasının Konstitusiyası hüquq və azadlıqları məhkəmə müdafiəsi ilə təmin olunan subyektlərə münasibətdə «hər kəs» ifadəsini işlətməklə məhkəmə müdafiəsinin hamı üçün bərabər əsaslarla əlçatan olmasını, subyektiv hüquqların və qanuni mənafelərin müdafiəsinin bu üsulundan istifadə yolunda hər hansı formal məhdudiyyətin olmadığını nəzərdə tutur. Məhkəmə qərarları bütün hüquq subyektləri üçün məcburidir, məhkəmələrin dövlət orqanı olaraq iqtidarı məhz bunda ifadə olunur. Məhkəmələr dövlət adından qərar çıxarır, dövlət isə həmin qərarların yerinə yetirilməsini təmin edir. Bu zaman təkcə Azərbaycan Respublikası vətəndaşlarının deyil, həm də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məhkəmə müdafiəsi hüququ təmin edilir. İnsan və vətəndaş hüquqlarının müdafiəsi ilə bağlı konstitusion göstərişlər dövlətə mənsubiyyətindən asılı olmayaraq, insana doğulduğu andan məxsus olan təbii, ümumbəşəri dəyərləri bərpa etmək səylərini özündə ehtiva edir. Bu hüquq və azadlıqların dövlət müdafiəsi onların dövlət və hər hansı digər müdaxilə olmadan sərbəst şəkildə həyata keçməsini nəzərdə tutur.

Daha sonra qeyd etmək lazımdır ki, məhkəmə müdafiəsi istisnasız olaraq bütün – həm birbaşa olaraq Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları ilə nəzərdə tutulmuş, həm də normativ qaydada təsbit olunmamış, lakin qanunvericiliyə zidd olmayan hüquq və azadlıqlara şamil olunur. Qanunla nəzərdə tutulan məhkəmə müdafiəsi ali hüquqi qüvvəyə malik olmaqla, müvafiq prosedurların mövcud olub-olmamasından asılı olmayaraq birbaşa qüvvədədir. Qanunda birbaşa göstərişlərin olmaması hər hansı, o cümlədən istintaq və prokurorluq orqanlarının qərar və hərəkətlərindən məhkəməyə şikayət etmə hüququndan imtina edilməsi üçün əsas ola bilməz.

Dövlətlərin hüquq və azadlıqları pozulmuş hər hansı şəxsə, bu pozuntu hətta rəsmi şəxslər tərəfindən yol verilən hallarda belə, hüquqi müdafiənin təsirli üsullarını təmin etmək öhdəliyini müəyyən edən Mülki və Siyasi hüquqlar haqqında Pakta tam uyğun olaraq, istənilən dövlət orqanının qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə müraciət etmək imkanı mövcuddur. Burada təbii ki, məhkəmələrin özləri tərəfindən yol verilmiş hüquq pozuntuları da

istisna deyildir. Başqa sözlə, məhkəmə müdafiəsi hüququ insan hüquq və azadlıqlarının nəinki qanunverici və icra hakimiyyəti orqanlarının özbaşınalığından, habelə məhkəmələrin qanunsuz və əsassız qərarlarından müdafiəsini nəzərdə tutur, bu isə mühüm prinsipial əhəmiyyətə malikdir.

Qeyd edək ki, məhkəmə müdafiəsi hüququ heç bir halda məhdudlaşdırılması yol verilməyən hüquqlar sırasına aiddir. Bu hüququn məhdudlaşdırılması Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş məqsədlərə (konstitusiya quruluşunun əsaslarını, əhalinin sağlamlığını, mənəviyyatı, digər şəxslərin hüquq və azadlıqlarını qorumaq, ölkənin müdafiəsini və təhlükəsizliyini təmin etmək) nail olmaq zərurəti ilə şərtlənə bilməz.

Müasir şəraitdə insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi hüququn konkret bir sahəsinə aid olmayan mürəkkəb hüquqi təzahür hesab olunur. Çoxsaylı normativ-hüquqi aktlarda nəzərdə tutulan məhkəmə müdafiəsi haqda müddəalar onların yalnız Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin 1-ci hissəsinin ifadəsi kimi qəbul edildiyi halda, tam mənası ilə başa düşülə bilməz. Məhkəmə müdafiəsi hüququ vətəndaşların, cinayət əməlindən zərər çəkmiş şəxslərin hüquq və azadlıqlarının realizəsini, dövlət orqanlarının qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyanın ödənilməsini təmin edir. Məhkəmə müdafiəsi çərçivəsində hüquqi yardım alma hüququ (Konstitusiyanın 61-ci maddəsi), dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət etmə hüququ (Konstitusiyanın 60-cı maddəsinin II hissəsi) realizə olunur.

Buna görə də, məhkəmə müdafiəsini yuxarıda göstərilən bütün hüquq normalarını özündə birləşdirən kompleks institut kimi nəzərdən keçirmək lazım gəlir. Yalnız məcmu halda götürdükdə həmin normalar fərdin hüquq və azadlıqlarının məhkəmə müdafiəsi üçün lazımi təminat yarada bilərlər. Ədalət mühakiməsi hüququ olmadan şəxs özünün məhkəmə müdafiəsi hüququnu realizə edə bilməz. Bu mənada, insan hüquqlarının ədalət mühakiməsi tərəfindən təmin olunduğu barədə göstəriş şəxsin pozulmuş hüquqlarının müdafiəsi məqsədilə məhkəməyə müraciət etmə imkanı kimi başa düşülməlidir.

İnsan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi mühakimə icraatının bütün formalarında həyata keçirildiyindən o, tam hüquqla, milli hüququn sahələrarası institutu, daha doğrusu, hüququn müxtəlif sahələrinə aid olan, lakin eynicinsli ictimai münasibətləri tənzim edən qarşılıqlı əlaqəli hüquq normalarının (institutlarının) məcmuu kimi nəzərdən keçirilə bilər. Məhkəmə müdafiəsinin milli hüquqda sahələrarası institut kimi baxılması məhkəmə müdafiəsinə həsr olunmuş sahə qanunvericilik müddəalarının unifikasiyası barədə təklif irəli sürməyə və əsaslandırmağa imkan verir. Məhkəmə müdafiəsinin vahid məqsədi mühakimə icraatının formasından asılı olmayaraq vətəndaşların hüquq və azadlıqlarının hüquqi müdafiə üsul və vasitələrinin vahidliyini nəzərdə tutur.

Mühakimə icraatının ayrı-ayrı prosedur və institutlarının inkişafı eyni bir istiqamətdə aparılmalı və bu zaman məhkəmə müdafiəsi məhkəmə hakimiyyətinin cinayət, mülki, inzibati və konstitusiya məhkəmə icraatları üçün vahid olan funksiyası kimi baxılmalıdır.

Hüquq və azadlıqların hər hansı pozuntusu ilə bağlı şikayətlə məhkəməyə müraciət etmə imkanının müəyyən olunması dövlət orqanlarının və vəzifəli şəxslərin insan hüquqlarını qanunsuz olaraq məhdudlaşdıran hərəkətlərindən, habelə pozulmuş hüquqların mühafizəsi, müdafiəsi və bərpası üzrə onların səlahiyyətlərinə aid olunmuş tədbirləri görməkdən imtina etdikləri halda məhkəmə müdafiəsi təminatı deməkdir. Belə ki, qanunvericiliyə uyğun olaraq, icra hakimiyyəti orqanının qanunsuz surətdə tətbiq olunmuş inzibati məsuliyyət tədbirindən verilmiş şikayətə baxmaqdan, yaxud istintaq orqanının cinayət işi başlama və ya onu davam etdirmədən imtina etdiyi hallarda maraqlı şəxs məhkəməyə müraciət etmək imkanına malikdir. Belə bir imkanın mövcudluğu digər hakimiyyət strukturları tərəfindən şəxsiyyətin hüquq və azadlıqlarının müdafiəsi üzrə vəzifələrinin lazımı surətdə icra olunmasına təminat verir.

Məhkəmə müdafiəsinə verilən təminatlar ictimai münasibətlərin ahəngini yaradan əsas amillərdən biri kimi çıxış edir. Hər bir vətəndaş üçün öz hüquqlarının müdafiəsi məqsədilə məhkəməyə müraciət etmək imkanının mövcudluğu onun hüquqlarının təkcə real deyil, həm də mümkün pozuntulardan müdafiəsinə təsirli təminat hesab oluna bilər. Buna görə, məhkəmə müdafiəsi hüquq elmində dövlət və şəxsiyyət arasında xüsusi hüquq münasibəti kimi nəzərdən keçirilir. Belə münasibətlər müstəvisində şəxsiyyətin hüquq və azadlıqlarının müdafiəsi hüququ dövlətin bu müdafiəni təmin etmək vəzifəsi ilə şərtlənir. Məhkəmə müdafiəsinin qeyd olunan aspekti maddi xarakter daşıyır, çünki şəxsiyyət hüquqları maddi hüquq normaları və onların nəzərdə tutduğu üsullarla təmin olunur.

Beləliklə, məhkəmə müdafiəsi hüququ insan hüquq və azadlıqlarının realizə edilməsi və bu realizə ilə bağlı hər şey – şəxsiyyətin, onun hüquq və qanuni mənafelərinin müdafiəsi üçün müəyyən olunan əsas təminatı kimi baxıla bilər. Məcmu halda götürdükdə onlar şəxsiyyətin toxunulmazlığının tərkib hissələrindən birini təşkil edirlər (6, s. 333). Bu zaman, həm ayrıca məhkəmə aktı (hökmün çıxarılması, iddianın təmin olunması üzrə qərardadın çıxarılması, qətimkan tədbirinin tətbiqi və ya ləğvi, xüsusi qərardadın çıxarılması və s.), həm də cinayət və ya mülki iş üzrə məhkəmənin bütövlükdə fəaliyyəti, habelə bütün məhkəmə sisteminin fəaliyyəti insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi kimi nəzərdən keçirilə bilər. Müxtəlif prosessual hərəkətləri yerinə yetirməklə – sübutları tədqiq edərək, tərəflərin ifadələrini dinləyərək, qərar çıxarmaqla, tərəflərin vəsatətlərini həll etməklə məhkəmə (hakim) məhkəmə baxışı subyektlərinin hüquqlarını müdafiə edir, onların ədalət mühakiməsində şəxsən iştirak etmək, bu məqsədlə müəyyən olunmuş səlahiyyətlərdən istifadə etmək hüququnu təmin edir.

Qeyd olunanları yekunlaşdıraraq, Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin nəzəri-hüquqi əsaslarının aşağıdakı başlıca müddəalarını irəli sürmək olar: insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin nəzəri əsaslarının ana xətti insan və vətəndaş hüquqları ideyası ilə müəyyən olunur; bu ideya müasir hüquq doktrinası tərəfindən müsbət qəbul olunur, hüquq düşüncəsi, hüquq yaradıcılığı və hüquq tətbiqi sferalarına yanaşmaların konseptual surətdə yeniləşməsinə mühüm təsir göstərir. Müvafiq elmi istiqamətə uyğun olaraq, ölkəmizin dövlət hakimiyyəti strukturları vətəndaşların hüquq və azadlıqlarının daha da effektiv müdafiəsi məqsədilə konstruktiv proqramlar həyata keçirir, yeni

mütərəqqi təşkilati strukturlar yaradır və yeni texnologiyaları tətbiq edir, bununla da, bu sahədə dövlət siyasətinin daha da təkmilləşdirilməsini təmin edirlər.

## ƏDƏBİYYAT


1. Баглай М.В., Габричидзе Б.Н. Конституционное право Российской Федерации. М.: НОРМА-ИНФРА-М, 1996.
2. Матузов Н.И. Правовая система и личность. Саратов: Изд-во Сарат. ун-та, 1987.
3. Толкачев Х.Б., Хабибуллин А.Г. Личные конституционные права и свободы граждан СССР: система, характеристики, особенности реализации. Уфа: Уфим. ВШ МВД РСФСР, 1990.
4. Синюкова Т.В. Юридические гарантии как метод регулирования правового положения личности // Вопросы теории государства и права. Перестройка и актуальные проблемы теории социалистического государства и права: Межвузовский сборник научных трудов. Саратов: Изд-во Сарат. ун-та, 1991.
5. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 554.
6. Конституционная защита прав и свобод личности. М.: Прогресс-Универс, 1993.


## ТЕОРЕТИКО-ПРАВОВЫЕ ОСНОВЫ СУДЕБНОЙ ЗАЩИТЫ ПРАВ ЧЕЛОВЕКА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Ф.А.МИРИЕВА**

### РЕЗЮМЕ

В статье, в первую очередь, отмечается, что дальнейшее совершенствование государственной системы защиты прав и свобод человека в Азербайджанской Республике предполагает уяснение важнейших теоретических положений относительно сущности и содержания института судебной защиты прав и свобод человека и гражданина. Так, по мнению автора, судебная защита прав и свобод человека и гражданина есть юридический механизм, с помощью которого государство обязано обеспечить соблюдение прав и свобод человека и гражданина, закрепленных, прежде всего, в Конституции страны. В связи с обоснованием этой позиции подробно анализируются положения Конституции Азербайджанской Республики относительно прав и свобод, подлежащих судебной защите, видов судебной деятельности, порядка организации и осуществления судебной защиты. Особо подчеркивается, что, закрепленное Конституцией Азербайджанской Республики, имеющей высшую юридическую силу на всей ее территории, право на судебную защиту является непосредственно действующим вне зависимости от наличия соответствующей процедуры его реализации.

В статье также всесторонне обосновывается широкий подход к проблеме судебной защиты прав и свобод человека, в соответствии с которым судебной защите подлежат не только права и свободы человека, принадлежащие ему в силу прямого указания законов, но и не противоречащие законам.

## THE THEORETICAL-LEGAL BASES OF COURT PROTECTION OF HUMAN RIGHTS IN AZERBAIJAN REPUBLIC

**F.A.MIRIYEVA**

**SUMMARY**

The article is stated that the following improvement of state system of protection of human rights and freedoms in Azerbaijan Republic presumes the understanding of important theoretical conditions concerning the core and content of institution of court protection of human and citizen rights and freedoms. According to the author the court protection of human rights and freedoms is the legal mechanism. The state is obligated to provide the observance of human rights and freedoms, which are stated in Constitution of Azerbaijan Republic with the assistance of this mechanism. The conditions of Constitution of Azerbaijan Republic regarding with the human rights and freedoms which are under the court protection, the kinds of court activity, the organization and realization of court protection are analyzed deeply in order to prove the position mentioned above. It is underlined particularly that the court protection right, which is fixed in Constitution of Azerbaijan Republic is realized independently from the presence of respective procedure of its realization. The author proves the wide approach to the problem of court protection of human rights and freedoms. According to the position of author rights and freedoms which are fixed in the law but also not contradict the law are under the court protection.